Əli ƏLİYEV
*Azərbaycan Dövlət İqtisad Universiteti,*
*Dizayn Kafedrasının müəllimi*

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ RƏSSAMLIQ VƏ DİZAYN İŞLƏRİNİN BƏZİ ASPEKTLƏRİ ( FƏRHAD XƏLİLOV YARADICILIĞINDA )

***Açar sözlər:*** *əsər, dəniz, barı, ağac, Abşeron, qayalar, kolorit, kompozisiya, təəssürat, horizont.*
***Слова Ключ:*** *произведение, море, забор, дерево, Абшерон, колорит, композиция, впечатление, горизонт.*
***Key words:*** *art, sea, fence, tree Absheron, color ful, impression, horizon*

*Məqalədə müasir Azərbaycan rəssamlığının görkəmli nümayəndələrin dən biri olan F.Xəlilovun özünəməxsus bədii dəsti-xəttə malik olanəsərləri və buəsərlərin daimi atributlarından biri olan dənizn mövzusu işıqlandırılır. Müəllifin dənizə olan məhəbbəti və dəniz mövzusunun onun əsərlərində müxtəlif fəlsəfi fikir və məna daşıdığını, eyni zamanda dəniz vasitəsi ilə rəssamın müəyyən simvolik-rəmzi mənaları tamaşaçıların diqqətinə çatdırdığının şahidi oluruq.Müəyyən atributları bütöv, ümumi və böyük formada təqdim edən rəssam xırdaçılıqdan uzaq olaraq bu predmetlərə konkret, eyni zamanda fəlsəfi münasibəti ilə diqqəti cəlb edir.*

1960-cı illərdən başlayaraq Azərbaycan təsviri sənətində öz sözünü deyən, öz dəsti-xəttinə və üslubuna malik olan xətti bu günümüzə daşıyan və indi də davam etdirən Fərhad Xəlilov müasir Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələrindəndir. Azərbaycanın xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilovun yarım əsrlik yaradıcılıq dövrü ərzində ərsəyə gəlmiş yaradıcı əsərləri tək Azərbaycan təsviri incəsənətinin deyil, həm də müasir dünya incəsənətinin bir tərkib hissəsidir.

Ümumiyyətlə F.Xəlilov yaradıcılığında əsas və əhəmiyyətli yeri mənzərə janrı tutur. Landşaft, dəniz, səma, ağaclar, dəniz sahili qum və qayalar- bunlar rəssamın yaradıcılığında əsas obyektlərdir- onun əsərlərinin Abşeron qəhrəmanlarıdır. Bütün bu əsərlərdə istər bütöv, istərsə də epizodik şəkildə mavi Xəzər dominantlıq təşkil edir.

Bu dəniz-məkan rəssamın əsərlərində hər zaman Abşeron torpağını yuyur, sığallayır, qayalara çırpılır və sakitləşir. Bu gah vahiməli, gahsakit, gah işıqlıdır- amma hər zaman sevimlidir və sanki rəssamın tərəf müqabilidir. Xəlilov əsərlərində dəniz bəzən fon rolunu oynayır, bəzən ön planda olur: amma hər zaman özrolunu oynaya bilir: gah hirslidir, gah sakit, gah sevincli,



gah da dəlidir- amma bütün halda Xəzərdir. Abşeron sahillərinə çırpınan və onu üç tərəfdən qucaqlayan doğma Xəzər.

Sahil hər zaman görüş yeridir. Bu dəniz və qurunun, suvə sahilin, açıq və tündün təması yaxud bütün gözəlliklərin sanki sahildə bitdiyi və dənizdə davam etdiyi bir məkandır. Bu məkanda dəniz də, onun rəngi də, sahildəki qayalıqlar da, bu məkanı birləşdirən sahil və səma da daimi olaraq rənglərini dəyişirlər. Və bu rəng dəyişikliklərindən rəssam əsərlərinin rəmzlik və simvolluğunda istifadə edir.

1971-ci ildə çəkilmiş "Buzovna qayalıqları" əsəri (60 x 95) rəssamın "dənizli" əsərlərindən biridir. Buəsərdə dəniz sahilində cərgələnən qayalar təsvir olunmuşdur. Dəniz, demək olar ki dioqonal olaraq sağ aşağı küncdə bütün ön planı tutmuşdur. Əsərdə dəniz sakitdir və bu sakitliyin nəticəsində qayalarla dəniz arasında əmələgəlmiş xırda qumluq sahildə bir qayıq vardır. Kompazisiyanın yuxarısında soldan sağa düzülmüş qayalıqlar bu qayığa və yaşıl zümrüd dənizə sanki keşik çəkirlər:qayaların soyuq, bəzən də isti çalarları ümumilikdə onlara bir möhkəmlik statusu verir. Min illərlə qayalara çırpılan, onları döyəcləyən, onda öz izlərini buraxan dənizsə bugün qayaların yanında sankibu qayalarla heç vaxt döyüşməyibmiş kimi aciz və sakit görünür. Və bu sakitlikdə dəniz isti qum təpəsinin üstündə duran qayıqla onun qoynunda gəzəcək olan insanın intizarındadır.

Ümumiyyətlə bu iş rəssamın 60-cı illərdə başladığı üslubun davamıdır. Real və azad üslubda işlənmişdir. Kompozisiyadakı isti qum təpəciyi soyuq rənglərin arasındadır və həm də onları bir-biri ilə birləşdirici rol oynayır. Dənizin öz planda çəkilməsinə və yerləşməsinə baxmayaraq qayalar daha dinamik və ritmikdirlər.

Müəllifin 1976-cı ildə işlədiyi "Sahildə küləkli axşam" (80 x 120) əsəri. Müəllif əsərdə günəşin tam horizonta enib ətrafı qızılı şəfəqlərə bürünməkdən sonrakı vaxtı təsvir edib.Kompozisiyada yuxarıdan ön planadək dioqanal olaraq sol tərəfdə dəniz təsvir olunub. Demək olar ki, kompozisiyanın yarıdan çoxunu təşkil edən dəniz axşam küləyinin təsirindən təlatümlu, dinamik və dalğalıdır. Sağ tərəfdə ön planda qumlu sahil təsvir edilmişdir. Bu qumlu sahil yaxınlıqdakı təpəlikdə itir.Təpəlik isə artıq günəş şüalarının onun üstünü işıqlandıra bilmədiyi üçün tündr əngdədir və zəifisti çalarlar onunf ormasını az da olsa bizə göstərir.

Uzaq dioqonalda dənizə soxulmuş sahil formasını görürük. Bura coğrafi olaraq burundur. Və o tünd qara-mavi çalarlarla tamaşaçıdan çox uzaqdadır. Biz təqribən burunla eyni səviyyədə qorizont xəttini sezirik. Amma bu axşam təbiətin elə biranıdır ki, dənizvə səmanın sərhəddi bilinmir. Hətta əsərə ilk baxdığımızda bizsanki səmada dənizin davamını görmüş oluruq. Və bu üzdən dəniz çox təlatümlü, möhtəşəm və təsiredici təəssürat verir.

Sahildəki sarı qumlara çırpılan ağ dalğalar, iki təpəliyin arasında dənizin uzaqdan görünən təlatümlü dalğaları dənizin hirsli və küləkli olduğunu bildirir. Amma bu təlatümün fonunda dəniz eyni zamanda ağ, həlim, xoşagələn bir görkəmdə işlənmişdir. Sahilə çırpılan hirsli ağ dalğalar birinci təpəliyə yaxın zümrüd, sonra isti ağ-sarı-bej kolorit və nəhayət açıq göy-bənövşəyi çalarlar bu təlatümlü sulara bir yüngüllük və şəffaflıq verir. Sahildəki ağ ləpələr sanki dənizin bayramı imiş kimi oynayırlar. Göydən dənizin üstünə "qonan" ağ bulud topası da dalğaların və dənizin bayramına və bu gözəl təbiət hadisəsinə şahidlik edir. Ön plandakı sarı qumlu sahil bu çox da soyuqolmayan mavi-gümüşü koloritə istilik-gözəllik qatır.

Kompozisiyanın sağında qum üzərində işlənmiş daşlar sarı qum koloritinə xüsusi gözəllik verirlər.Açıq soyuq rənglərlə işlənmiş bu daşlar yaxınlıqdakı təpəliklə isti qum kütləsini birləşdirir, bütövləşdirir. Səmadakı güclə sezilən yüngül gümüşü rənglər bəlkə də artıq günəşin batandan sonra olan görünüşünü əks etdirir. Bu gümüşü rəngdə sanki bir neçə dəqiqə əvvəl batmış günəşin açıq qızılı şəfəqlərinin izi qalmışdır.

Ümumiyyətlə bu əsər Fərhad Xəlilovun dənizə həsr etdiyi və Xəzəri ifadə etdiyi ən yaxşı əsərlərdəndir. Dənizdəki genişlik, nəhayətsizlik hər bir gözəlliyin daimliyinə, təbii və təbiət gözəlliklərinin əbədiliyinə işarətdir sanki...

Ümumiyyətlə qeyd etmək yerinə düşər ki, Fərhad Xəlilovun əsərlərində çəkilən formalar, yaxud bu zaman fırçanın ya mastixinin istiqaməti və.s işlədiyi əsərlərdəki əhval-ruhiyyə, dramatizm, ziddiyyət və başqa fikirləri tamaşaçıya çatdırmaqda ona kömək olur.

Rəssamın 1997-ci ildə işlədiyi "Dənizə yol" ( 100 x 130 kətan, akril) əsəri indicə təhlil etdiyimiz "Sahildə küləkli axşam" əsərindən fərqli üslubda işlənilmiş bir əsərdir. Bu üslub müəllifin müəyyən milli çərçivələrdən, müəyyən kanonlardan imtina edib özünə məxsus bir dünyəvi dəsti-xəttlə özünü təqdim etdiyi və özünü ifadə edəbildiyi bir üslubdur.

Əsərdə sahil və dəniz, bir dəbu təmasın sərhəddində sağ və soldan daş barılar təsvir olunmuşdur. Bu barılar kompozisiyanın ortasında "kəsilirlər". Və bu kəsilmənin nəticəsində əsərin adından göründüyü kimi dənizə yol açılır: bu yoldan biz tünd göy-qara çalarlarla işlənmiş dənizi görürük. Horizont xətti daş barılardan yuxarıda olduğundan biz dəniz və səmanın qovuşma nöqtəsini kətanın bütün eni boyunda görürük. Daş barılar əsərin eninə nəzərən paralel çəkilmədiyi üçün barıların özündə bir dinamiklik görürük. Sağdakı açıq qəhvəyi rəngli çəpər çəp formada "kadra" girərək kəsilir. Sol tərəfdəki ağ və ağ-mavi çalarlı daş barı isə sol tərəfdən kompozisiyanın orta xəttini keçdikdən sonra dayanır. Bu çəp bucaq nəticəsində qarşımızda dənizə enən yol açılır. Bu bizi dənizə aparır. Əsərdən aldığımız təəssüratda ön plandakı yol dənizdən xeyli hündürdədir. Əgər bu yolvə kompozisiyaya hər iki tərfdən daxil olmuş



barılar tamaşıçıda müsbət təəssürat oyadırsa bunu dəniz haqqında deyə bilərik: dəniz sakitdə olsa, vahiməli və tutqundur. Sol tərəfdəki ağ barının üstündən isə dənizin və səmanın qabağını kəsmiş bir ağac silueti görünür. Səma göy-mavi tonlarla nisbətən sakit təəssürat verən formada işlənmişdir.

Ümumiyyətlə "dənizə aparan yolları" biz F.Xəlilov yaradıcılığında tez-tez görürük. Bu simvollardan rəssam müəyyən əhval-ruhiyyəni bildirmək, demək üçün istifadə edir. Bu yol bəzənqaranlıq, çətin keçilən maneələrə aparırsa başqa əsərlərində, yaxud "Görüş" seriyasından olan əsərlərində yenə də təkrarlanır və bu dəfə bizi sabaha ümud verən, işıqlı, çox nikbin bir həyat sözverən gözəl bir"oazisə" aparır. Və bütün halda rəssam bu vasitələrlə demək istədiyi fəlsəfi fikirləri ifadə edir.

F.Xəlilov işlədiyi obyektlərdə: dəniz, ağac qum və.s nə olursa olsun özünə lazım olan atributları seçir. Ümumiyyətlə rəssam öz əsərlərini artıq ona lazım olmayan və özünün olmayanlardan təmizləyir. Elə bu da onun əsərlərinə bir dünyəvilik qatır. Bunun nəticəsində bu əsərlər dünyanın hər bir yerində başa düşülən və anlaşılan əsərlər hesab olunur. Təhlil etdiyimiz bu əsərdə də təsvir olunmuş bu iki daş barı həm formaca və həmdə rəngi ilə biri digərindən seçilsə də bütün halda istiqaməti və gediləcək yolu, yaxid gedə bilməyəcəyimiz, bəlkə də sonucuna görə məsləhət edilməyən yolu bildirir. Və rəssam əsərdə vermək istədiyi fəlsəfi mənaya bu dəfə bu cansız, amma əslində isə canlı daş barılar vasitəsi ilə nail olur.

"Dənizdə işıq". Bu əsər 1977-ci ildə (60 x 50) işlənmişdir. Nəzərdən keçirəcəyimiz başqa bir iş 1976-cı ildə işlənmiş "Buzovnada bahar" (50 x 61) əsəridir. Bu əsərlərin hər ikisi təqribən eyni vaxtda və eyni koloritdə işlənilmişdir. Qızılı, yaşıl-göy koloritdə çəkilmiş bu əsərlər F.Xəlilovun 70-ciillərə aid olan real səpgili əsərlərindəndir. "Dənizdə işıq" əsərində dənizə düşmüş işıq seli təsvir olunmuşdur. Qarşımızda vertikal ölçüdə, ön planda sahilə dirənən qayalar təsvir olunmuş, arxada ikinci planda isə kompozisiyanın yarısından çoxunu tutan zümrüd rəngli dəniz təsvir edilmişdir. Dəniz horizontda kürəvi şəkildə bitir və tədricən "səmalaşır". Həm dəniz, həm açıq qızılı-yaşıl rəngə çalan səma çox nikbin təəssürat verir. Bu nikbinliyi isə kompozisiyasının üst hissəsindəki qızılı tünd yaşıl-boz buludun arxasında gizlənmiş günəşdən dənizə düşən işıq artırır. Bu işıqda biz bu an dənizə bütün parlaqlığı ilə düşən, bizdən isə buludla gizlənən günəşi görürük. Dənizdəki zümrüd-yaşıl rəng isəadətən yazaylarındakı yağış sonrası olanbir rəngdir. Sahildəki qayalar isə bir az dramatik və ümumilikdə tünd rənglərlə işlənilməsinə baxmayaraq qayalar arasında sueffekti verən açıq rənglərin sayəsində onlardan ibarət bir "qayalar kompleksi" görürük. Bu qayalar sanki dənizin sakitliyinə keşik çəkirlər... Və bütün daşıdığı rəmzi mənalarla, fəlsəfi fikirlərlə bərabər bu iş Abşeron təbiətinin, Xəzərin özünəməxsus gözəlliyindən qaynaqlanıb və bu gözəlyarımadanı olduğu kimi ifadə edən əsərlərdəndir.

Bu koloritin davamı olaraq "Buzovnada bahar" əsərindən danışa bilərik. Bu əsər tam real səpgidə işlənmişdir. Demək olar ki, bütün fonunda dəniz və səma təsvir olunmuş bu əsərdə əsas obraz həyətlərdən birində görünən və kompozisiyanın mərkəzində böyük bir formada işlənilən çiçək açmış ağacdır. Ön planda isə horirontal formada soldan sağa maili vəziyyətdə təsvir olunmuş daş barı var. Bu barının içindəki evlərin qarşısında təsvir olunmuş bu ağac həm arxa fondakı dəniz və səma üzərində, həm də dəniz sahilinə qədər uzanmış və uzaqdan görünən Buzovna evləri üzərində "hökmranlıq" edir. Çiçək açmış bu ağac ətrafdakı qədim evlərlə sanki yaşıddır, onlar qədər qədimdir. Ağacın açan çiçəkləri elə bil ki, ətrafdakı qədimliyi öz yaz çiçəklərində ifadə edir. Çəpər də, ağaclardan arxadakı evlər də, uzaqda sahildə görünən bütün kənd evləri- bir sözlə hər bir predmet biri-birinə bağlı olaraqbir-birini tamamlayırlar.

Bu bir gözəl, hər zaman gördüyümüz, vərdiş etdiyimiz Abşeron yazıdır. Və biz bu əsərdə yazın nəfəsini və ətrini duyuruq. Ağacın gövdəsi də, budaqları da, bu budaqların üzərində qar dənələrinə oxşar topa-topa çiçəklər də hər zaman Abşeronda gördüyümüzdür. Bu ağaclar çoxlu şair və rəssamları duyğulandıran, əksəriyyətin isə adi baxdığı, fürsət düşdüyündə isə kəsibyerinə ev tikdiyi on minlərlə qurban gedən ağaclardan biridir.Başdan ayağa çiçək və yaz ətrinə bürünmüş əsərdə dəniz bütün bu gözəlliyin tamamlandığı tərzdə təsvir olunmuşdur. Dəniz və səma eyni zamanda ağacı bütövləşdirərək evlərin və daş barıların qızılı çalarına bir möhtəşəmlik verir.

Ümumi baxışda əsəri xəyali iki yerə böldükdə: isti sarı-qızılı rəng çalarları ilə işlənmiş aşağı hissəsi və soyuq gümüşü- göy koloritdə işlənmiş yuxarı hissəsi... bəlkə də deyiləsi mümkün olmayan bir ilahi təəssürat verir... Bu əsərdə biz Xəzərinənginliklərinə doğru uzanan və baxışımızı on kilometrlərlə uzağa aparan bir panoram görürük. Və bu nəhayətsiz məsafəyə malik olan əsər Fərhad Xəlilovun Abşeron sahillərini ifadə etdiyi ən gözəl əsərlərindən biridir.

Ümumiyyətlə rəssamın əsərlərində dəniz müxtəlif səpgidə və müxtəlif rakurslardan çəkilir. Bu zaman gah əsərin forması gah da ön plandakı qum təpəcikləri həml andşaftı və həm də kompozisiyanı tamamlayır. Gah real çalarlarla işlənmiş dəniz hər hansı simvolik fikri ifadə edir, gah da, xüsusən sırf mücərrəd əsərlərdə həm rəng, həm də forma fərqliliyi iləmüəllifin fikrini bildirir. Rəssamın 1984-2000-ci illərdə işlədiyi "Görüş" seriyasında olanəsəri (95 x 340) belə işlərdəndir. Əsərilk növbədə böyük təsiredici ölçüsü ilə yadda qalır. Ilk baxışda yaşıl və sakit dənizdə diqqəti qara rənglə işlənilmiş iki ədəd böyük silindr cəlb edir.

Bu silindirlər kompozisiyanın sağından və solundan təqribən mərkəzə gəlib bir-birinə müəyyən məsafədə dayanmış iki böyük kütlədir.Bunlar Abşeron da hər birimizə tanış olan iri neft çənlərinə bənzəyirlər. İki silindirin



ortasından dənizin sakitvə rahat ahəngini və uzaqdakı hozizont xəttini görürük. Isti boz rənglə işlənmiş fon bizdə sakitbir səma təəssüratı yaradır.Amma bu böyük, qara rəng kütləsinin güclü təsiri olan əsərdə ən maraqlısı silindir formaların üstündə, yəni dənizin üstündə daha bir dənizin təsvir olunmasıdır. Bu böyük qara kütlələrin üstündəki dənizlər bir ümumi dənizin rəngdə təkrarıdır. Dənizin forması isə silindir təəssüratı verən qara formaların üstüdür. Biz bu mücərrəd işdə dənizdə dəniz, yaxud dənizdə dənizlər görürük və qara rəng kütləri bu təəssüratı çox gücləndirir... Bu böyük kətandakı hər üç dəniz öz sakitliyi ilə, amma içində gəzdirdiyi sirr ilə-simvolik məna ilə dünya incəsənətinə məxsus olan və haqqında hələ çox danışılacaq işlərdən biridir. Bütün halda isə bu əsər bizim qara, ağır və nəhəng fikir və düşüncələrimizin "görüşüdür". Və bu görüşün, yaxud görüşlərin nəticəsi olaraq qarşımızda açılan horizontun timsalında bizdə hər şeyin yaxşıya doğru gedəcəyi kimi nikbin təəssürat yaranır!

Ümumiyyətlə Fərhad Xəlilov dünyası, düşüncələri fikirləri birqəlibə, bir müəyyən olunmuş şablona sığışan və sığışa bilən bir tərzdə deyil. Onun çəkdikləri bütün atributlar: istər dəniz, istər ağac, istər daş çəpər və. s- hər bir obyekt öz fəlsəfi mənasını daşıyır. Hətta bizim tanıdığımız Abşeron da öz dənizi, öz qumu ilə bu fəlsəfi dünyanın atributlarıdır. Elə bu dünyanı da rəssam özü yaratmış və ona öz dünyəviliyini qatmışdır. Ona görə də F.Xəlilov əsərlərinin hamısı öz daşıdıqları rəmzilik, fəlsəfi fikirləri ilə, görünüş monumentallığıilə, bəzən çox nəhəng forma təsiri ilə, bəzən daşıdığı poetik məna ilə millilikdən, yaxud hər hansı regiona məxsusluqdan çıxaraq əsl sənət, yaxud ümumdünya incəsənəti səviyyəsində dayanır. Bu səviyyə Fərhad Xəlilov yaradıcılığıdır.

Görüş seriyasından 2002-ci ildə işlənmiş (200 x 200) əsər. Bu əsər böyük kvadrat ölçüsündədir. Konkret olaraq bu əsərdə gördüyümüz dəniz və səmadır. Və bu görüş dəniz və səmanın görüşü-qovuşmasıdır. Açıq yaşıl-mavi rənglərlə işlənmiş dənizə göy-bənövşəyi xəttlərlə dalğalar verilmişdir. Əsər realı amma çox konkret, sadə və yumşaq effektlə işlənmişdir. Səma da eyni üsulda çəkilmişdir. Açıq isti boz-mavi səmada güclə seçilən seyrək bulud topaları görürük.

Ümumiyyətlə"Görüş" seriyasında olan əsərlərdə biz həm rəmzi mənalarla qarşılaşırıq, həm də əsərin fəlsəfi fikir və məna daşıdığını görürük. Bəzi əsərlərdə "görüşən" obyektlər dəniz sahilindəki iki qaya, bəzən sadəcə dəniz və səma, bəzən bir-birinə paralel olan, amma sanki hər biri bir rels üzərində öz hərəkət trayektoriyası olan, yaxud hər zaman öz möhkəm fundamenti olan və heç vaxt yerindən qoparılması mümkün olmayan, iki ağır kütlə-divarın mümkün olmayan, amma düşüncəmizdə, həyata keçirdiyimiz, o üzdən də "görüş" mələrinin mümkün olduğunu, qovuşmanın baş tutduğunu görürük.

Rəssamın 2010-cu ildə işlədiyi (200 x 200) "Görüş" seriyasından əsəri. Bu əsər də böyük ölçüyə malikdir. Əvvəl təhlil etdiyimiz əsərdən fərqli olaraq burda qorizontal-çoxplanlı və yaxud"çoxmərtəbəli" rəng və forma kütlələri var. Əsəri təşkil edən bu kütlələr ön planda mavi-göy dəniz, açıq qəhvəyi sahil verilmişdir. Üçüncü plan isə qara rəngdədir. Bu rəng horironta qədər uzanaraq, arxada xırda təpəliklər əmələ gətirən axşam qaranlığını ifadə edir. Horizont xəttində isə tünd göy, sonra isə mavi səma görürük. Mavi rəng qatından sonra daha böyük və əsəri tamamlayan, sakit axşam səmasını ifadə etdirən mavi-bej rəng görürük. Bu rəngdə çox güclə seçilən və bulud təəssüratı verən, bej rəngə qarışan və bulanıq formada işlənmiş bulud topacıqları görürük. Yeddi rəng qatından ibarət gözəl və improvizasiya olunmuş bu təbiət təsvirinin heç şübhəsiz rəmzi və fəlsəfi mənaları var. Amma bu bütün halda fikir və reallıqda arzu etdiyimiz "görüş"lərin baş tutmasıdır.

Rəssamın 2004-cü ildə "Görüş" (100 x 140) əsəri. Bu "görüş" də biz o biri əsərlərdə olduğu kimi bir-birinə paralel horizontal xətlər görmürük: Əsərdə səthində günəş zərrələri əks olunan, ləpələri günəş şüalarını özündə əks etdirən, bir yay dənizi təsvir olunmuşdur. Sol tərəfdən kompozisiyanın qarşısını demək olar ki, yarıya qədər yuxarıdan aşağıya qədər yarım dairəvi-qövsvari tünd yaşıl bir kütlə-ağac tutmuşdur. Mərkəzdə qara-yaşıl, kənarları isə tünd yaşılla işlənmiş və girdəlik effekti verilmiş bu tünd rəng kütləsi dənizi ön plandan "kəsmiş" ağacdır. (Əslində bu kütlə fəlsəfi düşüncələrimizin sirr kürəsi də hesab oluna bilər). Tünd çalarlarla işlənməsinə baxmayaraq, onların görüşü tamaşaçını narahat etmir. Əksinə, dalğaları bir-biri ilə pıçıldaşan dəniz insanı sakitliyə və təmizliyə dəvət edir. Burda biz həm yaz və yayın nəfəsini duyuruq, həm də günəşin istisindən suya olan sərinləmək ehtiyacını hiss edirik. Dəniz və horizont demək olar qövsvari formadadır və əsərin horizont xəttinə tam paralel deyil. Bu da dənizdən və səmadan aldığımız zövqü daha dagücləndirir. Təpəliyi və ağacı xatırladan tünd yaşıl kütlə isə həm rəng koloritinə, həm də daşıdığı əhval-ruhiyyəyə görə dənizdən aldığımız müsbət təəssüratları azaltmır, əksinə bu yaşıllıq öz koloritinə və formasına görə dənizin dinamikliyini artırır.

Böyük bir yaradıcılıq yolu keçmiş, bu gün də bu işini davam etdirən və bəlkə də 70-ciiklərdən bu günə gəldiyi yolda müasirlərimizin müasir rəssam adlandırdığı Fərhad Xəlilov əslində həm dəgələcəyin rəssamıdır. Vaxtı ilə inadkarcasına, bəlkə də dünya şöhrətli tənqidçilərdən "ziyansız" qurtara bilən rəssam öz saldığı, öz tikdiyi və özünə məxsus olan yolla gedir, bu yolda öz yaradıcılığını davam etdirir. Və dünya səviyyəli sənətkarımıza bu yolda uğurlar arzu edirik!



## ƏDƏBİYYAT

1. Имена в искусстве. Фархад Халилов Москва 2012 г.
2. Azərbaycan İncəsənəti RasimƏfəndi Bakı 2007
3. Фархад Халилов «Магазин искусства» Москва 2000 г.
4. www. trend.azФархад Халилов
5. www.azeri.ru/farhad halilov
6. www.echo.az article

А.И.Алиев

## НЕКОТОРЫЕ АСПЕКТЫ РАБОТЫ ПО ЖИВОПИСИ И ДИЗАЙНУ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ (НА ПРИМЕРЕ ТВОРЧЕСТВА ФАРХАДА ХАЛИЛОВА)

### РЕЗЮМЕ

В этой статье описывается работы замечательного представителя современного Азербайджанского искусство, народного художника Фархада Халилова, рассматриваются один из главных героев его произведений – море.Любовь к море – эта как красный нить проходить в большинство его картин посвященных родному Абшерону. Мы становимся свидетелями передачиразных философических мыслей и символов автором именно через море, через Каспий – который он так любит. В его картинах мы замечаем больших, крупных форм и конкретность в его земных и философически – символических взглядов.

A.Aliyev

## SOME ASPECTS OF THE WORK OF PAİNTİNG AND DESİGN İN THE AZERBAİJAN CULTURE (İN THE WORKS OF FARHAD KHALİLOV)

### SUMMARY

This article discribes the work of the great representative of the contemporary Azerbaijani art- the national artist Farhad Khalilov. "Sea" is considered to be one of the main subjects in his art. His love to the sea is like a red line through out all of hispaintings which are dedicated to his dear Absheron. We get the chance to observe various phisolosophical thoughts and symbols through the sea, through the Caspian sea which he deeply loves. His paintings are presenting great shapes priciseness of the worldly philosophical and symbolic views.